# Elm və din: ziddiyyət, yoxsa vəhdət?

written by Nisa Hajiyeva Nisə Hacıyeva

Dinlə elmi bir-birinə qarşı qoyaraq onların ziddiyyət təşkil etməsi iddiası XIX əsrdə Con Vilyam Dreyper[i] və Endrü Dikinson Uayt[ii] tərəfindən irəli sürülüb. Riçard Dokinz kimi elmi kütləviləşdirən alimlər tərəfindən də bu ziddiyyət son dövrlər daha çox vurğulanır. Digər tərəfdə isə bir çox inanclı insanlar tərəfindən dinlə elmin vəhdətindən bəhs edilir. Məsələn, teist genetiklərdən biri olan Frensis Kollins təkamül və yaradılış nəzəriyyələrini eyni zamanda qəbul edir. O, *Tanrının dili*[iii] kitabında elmdə Tanrının varlığına dair işarələr axtararaq elmlə dini birləşdirməyə çalışır. Həmçinin müsəlmanlar arasında da elmlə dinin vəhdət təşkil etməsi geniş yayılmış bir mövzudur. Hətta bəzi müsəlman alimləri təkamülü inkar etməyərək, Quranda göstərilən yaradılışı hərfi mənada deyil, metafizik anlamda qəbul olunmasını düzgün hesab edirlər.[iv] Bir tərəfdən Qalileyi həbs edən katolik kilsəsi, təkamülü inkar edən dindarlar, digər tərəfdən hər dəfə elmi bir kəşfdən sonra dini kitablarda bu kəşflərə dair işarələrin olduğunu sübut etməyə çalışan inanclı insanlar gözümüzün önünə gəlir. Dinlə elmin toqquşaraq, ziddiyyət və yaxud vəhdət yaratması arasında mübahisə gedərkən, ümumiyyətlə dinlə elmin toqquşmadığını idda edən alimlər də var. Misal üçün Stiven Cey Quldun fikrinə görə bu iki sahə ziddiyyət təşkil etmir, çünki bu sahələrin peşəkar təcrübəsi arasında kəsişmə nöqtəsi yoxdur.[v]

Hazırkı məqalədə mən göstərməyə çalışacağam ki, indiyə kimi din və elm arasında əlaqənin olub-olmamasına, bu əlaqənin ziddiyyət, yoxsa vəhdət təşkil edib-etməməsinə dair bütün fikir ayrılıqları, mübahisələr “elm” və “din” anlayışının fərqli interpretasiyasından yaranır. Bunu nümayiş etdirmək üçün *dini hisslərin* müəyyən çərçivədə elmlə kəsişmədiyini, lakin o çərçivədən kənara çıxdıqda elmlə ziddiyyət təşkil

etdiyini göstərməyə çalışacağam. Həmçinin qeyd etməliyəm ki, “din” anlayışı bu məqalədə ibrahimi dinlər olaraq, “elm” anlayışı isə təbiət elmləri olaraq nəzərdə tutulur. Sosial və humanitar fənlərin elmi statusu mübahisəli mövzudur. Nəzərə alsaq ki, sosial və humanitar fənlərin subyekti insandır və ya insanla əlaqəli hadisələrdir (misal üçün: tarix elmi), həmin fənlərdə obyektiv nəticəyə gəlmək olduqca çətindir.

Din fövqəltəbii hadisələrə inanc üzərindən qurulmuş dünyaya baxış tərzidir. İslam, Xristianlıq və  İudaizm (Yəhudilik) dinlərini birləşdirən *dini hisslər* Tanrıya inanmaq (1), axirətə inanmaq (2), möcüzələrə inanmaq (3), yaradılış nəzəriyyəsinə inanmaq (4) və dində müqəddəs sayılan kitabların (Quran, İncil, Tövrat) mütləq həqiqət olduğunu qəbul edib, sorğulamamaqdan (5) ibarətdir. İbrahimi dinlərdən birini seçib qəbul edən insanlar bu *dini hisslərin* ən azından birinə, bir neçəsinə, ya da hamısına sahibdir. Bu dini inanclar həmçinin müxtəlif davranış normaları, rituallar və ibadətlərlə müşahidə oluna bilər. Lakin mən bu məqalədə yuxarıda göstərilən 5 *dini hissin* elmlə əlaqəsini müzakirə edəcəyəm.

**Tanrıya və axirətə inanmaq**

İlk öncə müasir “elm” anlayışına nəzər salaq. Qədim zamanlarda elmi və dini mövzular hamısı birlikdə fəlsəfəyə aid idi, mütəfəkkirlər də dünyanı bütövlükdə anlamağa çalışırdılar. Onlar üçün bizim hal-hazırda bildiyimiz müasir elm, din və fəlsəfə arasında fərq yox idi.[vi] Lakin XIX əsrdə pozitivist cərəyan elmi tamamilə metafizikadan ayıraraq bizim indi qəbul etdiyimiz “müasir elmə” çevirir.  Elm artıq yalnız “necə?” sualına cavab verir və  yağışın yağmasını, çayın axmasını, ildırım çaxmasını izah etmək üçün bizim gözəgörünməz varlıqlara inanmağımıza və “filosofluğumuza”da ehtiyac qalmır.[vii] Amma bu gün elm təbiətin qanunlarını izah etsə də, bizim həyatımızın mənasını izah etmir, özümüzə aid “niyə?” sualımıza elm cavab vermir. Hətta bu gün abiogenez (cansızdan canlıya keçid) əyani sübutunu tapsa, bu yenə “ilkin səbəbin” olub olmamasına dair heç bir cavab gətirməyəcək. O zaman

insanlar daima məna və dolayısı ilə ilahi qüvvə, ilkin səbəb axtarışında olmağa davam edə bilərlər. Əgər insanın məna axtarışı bitməyəcəksə, o zaman “ilkin səbəbin” olmasına dair ehtimal da davam edə bilər. Çünki tarix göstərir ki, biz nə qədər “necə?”ləri kəşf etsək də, “niyə?”lər daima var və bu “niyə?”lər bizim inanclı, ya inancsız olduğumuza görə dəyişir. Kimin üçünsə heç bir ilkin səbəb yoxdur və hər şey təsadüfdür, bir başqası üçün isə hər şey bir ağıllı dizaynın məhsuludur. Bu baxımdan elmlə məşğul olan bir insanın Tanrıya, yəni ilkin səbəbə inanması elmlə nə ziddiyyət təşkil edir, nə də vəhdət. Başqa sözlə desək bir fizikin dindar olub-olmaması onun fizika qanunlarını öyrənməsinə və qəbul etməsinə əngəl yaratmır. Misal üçün biokimyaçı Maykl Behe düşünür ki, hal-hazırda bildiyimiz təkamül mexanizmləri bəzi mürəkkəb biokimyəvi strukturları izah etməyə yetmir və çox güman ki, bu strukturlar bir ağıllı üstün varlıq tərəfindən yaradılıb[viii].

Amma deyə bilərik ki, ilkin səbəbə inanmaq hələ də *dini hisslər* deyil, sadəcə Tanrının varlığına dair inancdır. Bir çox hallarda sadəcə Tanrıya inanan insanlar özlərini deist kimi təqdim edirlər. Ona görə Tanrıya inancdan başqa, həmçinin axirətə – cənnət və cəhənnəmin olmasına dair inancı, həmçinin ibadəti də mən elmlə ziddiyyət təşkil etməyən *dini hisslər* çərçivəsinə salıram.

Necə ilkin səbəbin var olub-olmamasına dair fərqli fikirlər mövcuddursa, həyatın mənasına dair, yəni son səbəbə dair də müxtəlif fikirlər mövcuddur. Həyatın mənasını fərqli ideologiyalarımız, müxtəlif xəyallarımız da müəyyən edir. Fərq yalnız ondadır ki, insanlar axirətə inandıqda ilahi imperativ son səbəbi mənaya çevirirlər, inanmadıqda isə özləri üçün “yaxşı insan olmaq,” “dünyanı xilas etmək” və “adını tarixə yazmaq” kimi mənalar kəşf edib onların arxasınca gedirlər. Hətta insanların həyatı boyu ona yol göstərən böyük mənaları olmasa da, onlar həyatdan kiçik həzzlər alır[ix] və ya “pul” kimi məna illüziyaları yaradırlar.[x]

Hazırda məni daha çox düşündürən fəlsəfi sual “niyə?” sualının, məna axtarışının səbəbidir. Biz niyə daima “niyə?” sualı verib məna axtarırıq? (Baxın, yenə mən “niyə?” sualı verirəm). Bu, bizim genimizdə kodlaşdırılıb, yoxsa sosial konstruksiyadır? Əgər bu bizim genimizdə kodlaşdırılıbsa, o zaman bunun səbəbi hər hansı bir ilahi qüvvədir, yoxsa təsadüfən təkümülün yan məhsuludur? Bu, hal- hazırda elmi yox, fəlsəfi sualdır. Lakin elmi olaraq bunun cavabını tapmaq mümkün ola bilər deyə düşünürəm. Müasir dövrdə süni intellektin inkişafı bizə bir çox cavablar vəd edir. Əgər bir gün insan tərəfindən yaradılmış süni intellekt məna axtarışına çıxarsa, bəlkə biz bunun necə yarandığını və dolayısı ilə biz insanlarda necə yarandığını tapa bilərik. O zaman bu fəlsəfi suala da elm cavab verəcək.

Hələlik isə bu fəlsəfi “niyə?” sualının, daha doğrusu məna axtarışının ilahi olub-olmamasının elm üçün heç bir fərqi yoxdur. Bu gün öz həyatını xərçəng xəstəliyinin çarəsinin axtarışına həsr edən insanların mütləq bir səbəbi var. Bəlkə pul, bəlkə humanist bir ideya, bəlkə cənnətə düşmək, ya da tanınmaq istəyi. Əgər humanist ideologiyadan qaynaqlanaraq insanlığı qurtarmaq üçün kimsə elmlə məşğul ola bilirsə, cənnətə düşmək üçün də elmlə məşğul ola bilər. Bizim “niyə?” sualımızın cavabından asılı olmayaraq təbiətin qanunları dəyişmir. O zaman *dini hisslər* və elm bu çərçivələrin içində bir-biri ilə nə ziddiyyət təşkil edir, nə də vəhdət. Stiven Cey Quldun “kəsişməyən prinsiplər”[xi] nəzəriyyəsinə uyğun olaraq din və elm fərqli suallara dair cavab axtarışıdır.

Əgər *dini hisslər* hər hansı bir insan üçün sadəcə çoxsaylı mənalardan biridirsə, həmin insan *dini hisslərini* elm üçün istifadə edib-etməməkdə azaddır. Məsələn, kimya üzrə nobel mükafatı alan misirli Əhməd Zevayl və türkiyəli Əziz Sancar müsəlman və inanclı olduqlarını deyirlər. Hətta Əhməd Zevayl öz kitabında cənnətə inandığı haqda, ibadətləri haqda xeyli misallar çəkir.[xii] Yəhudi neyroalim və aktrisa Mayim Bialik də bir çox çıxışlarında alim olmasına baxmayaraq dinindən imtina etmədiyini qeyd edir. Əksinə, o deyir ki, yəhudilik ona

mənəvi köməklik edir, daxili dünyasını zənginləşdirir. Albert Eynşteyni kainatın genişlənməsi fikirlərinə sövq edən "Böyük Partlayışın atası" kimi tanınan belçikalı katolik rahib Jorj Lemetr idi. Lemetr həmçinin riyaziyatçı və astronom olaraq bir sıra hesablamalar edib, kainatın genişləndiyinə dair nəticələrə gəlmişdi. O zamanlar Albert Eyşteyn kainatın statik olduğunu düşünürdü, lakin Lemetr öz hesablamaları ilə Eynşteyni fikrindən döndərə bildi. Sonda Eynşteyn öz tənliklərinə "kosmoloji sabit" əlavə edərək bu nəzəriyyəni qəbul etdi.[xiii]

**Təkamül nəzəriyyəsini inkar edərək möcüzələrə inanmaq və sorğulamamaq**

Lakin bir çox hallarda *dini hisslər* yalnız yuxarıda qeyd etdiyim amillərlə bitmir. Dindar insanlar təkamülü inkar edərək yaradılış nəzəriyyəsinə və möcüzələrə inanırlar; ən əsası isə sorğulamağı dinə zidd sayırlar. Bu hallarda din elmin şərtləri ilə ziddiyyət təşkil edir və dindar insanın elmlə məşğul olması mümkünsüz hala çevrilir. Gəlin elmin özünəməxsus şərtlərinə nəzər salaq. Hər hansı bir kəşfin və iddianın elmi olması üçün 3 əsas şərtə cavab verməsi mütləqdir: Təbiət qanunları ilə idarə olunması (1), təkzibə meyilli olması (2) və empirik testdən keçməsi, yəni dəfərlərlə əyani olaraq təkrarlanması (3). Bu şərtlər üzərindən biz yaradılış nəzəriyyəsini (creationism) qiymətləndirməyə çalışsaq görərik ki, bu nəzəriyyə heç bir şərtə cavab vermir. İlk öncə ona görə ki, yaradılış nəzəriyyəsi təbiət qanunlarına istinad etmir və yeni təbiət qanunlarını üzə çıxarmır. Yaradılış nəzəriyyəsi təkzibə meyilli deyil, çünki heç bir proqnoz vermir. Həmçinin ayı iki yerə bölmək, suyun üzərində gəzə bilmək, dənizi iki yerə ayıra bilmək kimi möcüzələr barədə mifləri də biz empirik testdən keçirə bilmirik. Hətta yaradılış nəzəriyyəsinin əleyhinə təkamül nəticəsində yaranmış fosillər kimi nə qədər sübut tapılsa da, yaradılış nəzəriyyəsinə inananlar bu sübutları inkar edib "inancımızı sınağa çəkməsi üçün Tanrı tərəfindən Yer kürəsinə səpələnmiş fosillər" deyib başqa bir möcüzəyə istinad edirlər. Elm isə

əksinə, kainatın hər bir yerində eyni cür işləyən təbiət və universal qanunları üzə çıxarır. Misal üçün, cazibə qüvvəsi nəzəriyyəsi bizə imkan verir ki, atdığımız nəsnənin yerə düşəcəyini və hətta düşdüyü hündürlüyü bilərək, hansı sürətlə yerə düşəcəyini əvvəlcədən müəyyənləşdirək. Biz daima bunu empirik testdən keçirə bilərik və əgər proqnozumuz özünü doğrultmasa, o zaman həmin elmi qanun təkzib olunacaq. Təkzibə meyillik budur. Yəni təcrübə oluna bilsin və təcrübə olunduğu zaman proqnozu doğrultmadıqda təkzib oluna bilsin. Bəs təkamül nəzəriyyəsi necə, elmin şərtlərinə cavab verirmi?

Təkzibə meyillilik prinsipini təqdim etmiş elm filosofu Karl Popper ilk başda təkamül nəzəriyyəsinin doğruluğunu inkar etməsə də, onun elmin şərtlərinə cavab vermədiyini deyirdi.[xiv] Təkamülün yalnız təbii hadisələrdən qaynaqlanmasına və heç bir metafizik fövqəltəbii hadisələrə aidiyyatının olmamasına baxmayaraq, yenə də təkamül hər hansı universal qanun üzə çıxara bilmir. Biz deyə bilmirik ki, əgər zürafə cənubda deyil, daha şimalda doğulsaydı, onun dərisi daha açıq rəngdə olardı. Bir sözlə biz qravitasiya nəzəriyyəsində olduğu kimi universal təbii qanun kəşf edib heç nə proqnozlaşdıra bilmirik. Təkamül nəzəriyyəsi bizə yetərincə məlumat vermir ki, bunun əsasında proqnoz verək və hər hansı bir mühitdə olan canlını görməmişdən öncə onun görünüşü haqqında dəqiq detalları müəyyən edək. Proqnozlaşdırma mümkün olmadığı üçün təkzibə də meyilli deyil. Təbii seçmə, yəni ən uyğun cinsin həyatda qalması Popperə görə taftalogiyadır: Ən uyğun cins həyatda qalırsa ən uyğun cins hansıdır? Cavab: Həyatda qalan. Təkzibi heç bir halda mümkün olmayan nəzəriyyələrə Popper psevdoelm deyirdi. Bunların sırasında falçılıq, münəccimlik, yaradılışçılıq kimi sahələrlə bərabər bizim elm saydığımız psixologiyanı və təkamülü də əlavə edirdi.[xv] Lakin bir müddət sonra Popper məhz təkamülün psevdoelm olduğu iddiasını geri çəkdi. Buna səbəb də təkamül nəzəriyyəsinin çox mürəkkəb və bundan dolayı da asanlıqla proqnozlaşdıra bilməyəcək olmasıdır.[xvi]

Hazırda bunu psixologiya elminə də aid edə bilərik. Bu

sahələrdə dəqiq proqnoz verilməməsinin, yəni nəzəriyyənin təkzibə meyilli edilməməsinin səbəbi həddindən artıq çox nəsnənin prosesə təsiridir. Misal üçün, təbii seçməyə mutasiya ilə yanaşı, ətraf mühit, fövqəladə hadisələr və s. kimi yüzlərlə, bəlkə hətta minlərlə şərtlər təsir edir. Eyni ilə insan davranışlarına və psixologiyasına da həm fiziologiyamız, həm də yüzlərlə və minlərlə xarici şərtlər, həyatımızın hər bir anı təsir göstərir. Amma bu gün məlumatların toplanması və analizləri nəticəsində bu elmlər daha çox dəqiqlik tapmağa başlayır. Təbii ki, təkzibə meyilli olmaq və universal qanunlar yaratmaq üçün bu yolun heç yarısını belə keçməyib. Amma münəccimlik, falçılıq, yaradılışçılıq kimi metafizikada ilişib qalan sahələrdən fərqli olaraq, təkamül nəzəriyyəsi və psixologiya inkişaf etməkdə davam edirlər.

Elmin əsas şərtlərindən biri də sorğulamaqdır. Popperdən əvvəl alimlər elmin müşahidə ilə başladığını qeyd etməklərinə baxmayaraq, Popper bu nəzəriyyəni inkar edərək göstərdi ki, elm öncə problemi görməklə başlayır. Əgər kimsə sizə "müşahidə et" desə, siz nəyi müşahidə edəcəyinizi bilməyəcəksiniz. Buna görə də, Popper yazırdı ki, siz öncə problemi görməlisiniz, daha sonra isə müşahidə edərək həmin problemin həllinə dair nəzəriyyələr irəli sürüb yoxlamalısınız.[xvii] Problemi görmək üçün isə ətrafda baş verən hadisələri anlamağa çalışmaq və hətta artıq izahı olan və ya mütləq həqiqət kimi təqdim olunan məsələləri sorğulamaq mütləqdir.

Müxtəlif dövrlərdə dindar insanlar dini kitablarda sözü keçən mövzuları və iddiaları mütləq həqiqət kimi qəbul etməyib sorğulamağı bacarıblar. Halbuki sorğulamağı qadağan edən dini qərarlar elmdə mənfi nəticələr verib. Misal üçün VIII əsrdən başlayaraq yunan fəlsəfəsinin təsiri ilə dünyanı rasional olaraq anlamağa çalışan İslam alimləri "kəlam" məktəbi yaradaraq həm təbiəti, həm Tanrını, həm də Quranı sorğuladılar. Lakin XII əsrdə İslam filosofu Qəzali Aristotelin müsəlman davamçılarına qarşı çıxaraq, fəlsəfi

mövzuları rasional olaraq anlamağa çalışanları tənqid etdi. Qəzali düşünürdü ki, bu mövzuların bəziləri İslam dininə tamamilə ziddir. O, xüsusi ilə İbn Sinanın dünyanın yaranma tarixi və zamanının olmaması (1), Tanrının ümumi canlılardan xəbərdar olsa da, ayrı-ayrı fərdlərdən bixəbər olması, yəni fərdin taleyində Tanrının heç bir rolunun olmaması (2) və ölümdən sonra ruhun bədənə geri dönməməsi (3) ilə bağlı üç tezisini İslam dininin buyurduqlarına zidd olduğunu deyir və müsəlmanlar üçün təhükəli sayır. Bu üç tezisdən biri – kainatın və Yer kürəsinin yaşı artıq günümüzdə fəlsəfənin deyil, elmin mövzusudur. Günümüzdə aparılan hesablamalar kainatın 13.82 milyard, Yer kürəsinin isə 4.53 milyard yaşı olduğunu deyir. Lakin Qəzali *Filosofların əsassızlığı* (Tahâfut al-falâsifa) əsərinin sonunda fətva verir ki, bu üç tezisi qəbul edib yayan hər kəs kafirdir, öldürülməyə də layiqdir. Bundan sonra müsəlman dünyasında Tanrını, yaradılışı və Quranda deyilənləri sorğulamaq, şəriətə zidd fikirlər irəli sürmək artıq heç kəsin ixtiyarında deyil.[xviii]

Yer kürəsinin yaşını sorğuladığı üçün problem yaşayanlardan biri də yəhudi ravvin Natan Slifkin olub. Natan Slifkin din və elm mövzularında müxtəlif araşdırmalar edib və kitablar yazıb. Lakin 2001-2004 illərində yazdığı üç kitabında o yer kürəsinin yaşına dair və Tövratda adı keçən mistik canlılara dair Tövratla ziddiyyətli fikirlər irəli sürür. 2005-ci ildə İsraildə bir sıra ultraortodoks ravvinlər həmin kitabları yandırmaq üçün çağırışlar etdilər və bu kitabların nəşrinə qadağa qoyuldu.[xix] Eyni problem orta əsrlərdə Qərbi Avropanın xristian dünyasında da baş verir. Baxmayaraq ki, Kopernik də, Qaliley də hər ikisi ilahiyat təhsili almış inanclı katolik idilər, onlar Yer kürəsinin kainatın mərkəzi olmadığına dair fikirlər və faktlar irəli sürdükdə Katolik kilsənin inkvizisiya məhkəmələri bu alimlərin İncilə zidd olan elmi kəşflərini inkar edib və bəzən özlərini də təqib etdi.

***

Yuxarıda yazılan misallardan görmək olur ki, dinin təsir

gücünə malik olduğu yerdə elm dinin əsarətindən çıxaraq müstəqil şəkildə inkişaf edə bilməyib. Günümüzdə bir çox dövlətlər dindən ayrılaraq dünyəviləşib, amma bəzi dövlətlər qismən, ya da tamamilə şəriət qanunları ilə idarə olunmağa davam edirlər. Bunun fəsadlarını görmək üçün müsəlman ölkələrinin (İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələr nəzərdə tutulur) statistikasına nəzər salaq. Dünyada hər min nəfərdən orta hesabla 41 nəfəri elmi işçi, mühəndisdirsə, müsəlman ölkələrində bu rəqəm hər min nəfərdə 9-dur. Müsəlman ölkələrində yerləşən 1800-ə yaxın universitetdən yalnız 312 universitetin əməkdaşı akademik jurnallarda məqalələrini çap etmişlər.[xx] İƏT-in 57 üzv ölkəsindən 37-si qismən və ya tamamilə şəriət qanunları ilə idarə olunursa, 20 üzvü – Azərbaycan, Türkiyə və s. kimi ölkələr – dünyəvi dövlətlərdir. Lakin bəzi dünyəviləşmiş ölkələrdə belə institutlaşmış gücə malik olan din zaman-zaman elmin inkişafına təsir göstərir. Xüsusi ilə postsekulyar dönəmdə[xxi] din dövlətdən ayrı olsa da, din hələ də  güc sahibi olaraq elm və tədris sahələrində böyük rol oynayır. Həmçinin maraqlı faktlardan biri də odur ki, 57 üzvdən 45-i (dünyəvi ölkələr də daxil olmaqla) şəriət qanununa görə azad sözü tənzimləyən İslamda İnsan Hüquqları haqqında Qahirə Bəyənnaməsini qəbul etmişdir. Qahirə Bəyannaməsində şəriət qanunu ilə azad söz hüququnun şərtləri var. Orada qeyd olunur ki, “Hər kəs şəriət prinsiplərinə zidd olmayacaq şəkildə öz fikrini sərbəst ifadə etmək hüququna malikdir.”[xxii] Yəni azad sözə, informasiyaya, dolayısı ilə maarifçiliyə məhz şəriət prinsiplərinə görə məhdudiyyət var.

Maarifçiliyin olması üçün liberalizm mütləqdir.[xxiii] Maykl Polanyinin sözlərinə görə, elm azad və müstəqil olmalıdır. O, elmi, mərkəzdə duran böyük bir tapmaca kimi təsvir edir və onun parçalarını yığmaq istəyən hər kəs üçün açıq olmasını mütləq sayır.[xxiv]  Lakin o kəslər ki, elmlə məşğul olmaq istəyir, onlar elmin şərtlərini qəbul etməli və yalnız elmlə ziddiyət təşkil etməyən *dini hisslər* çərçivəsində qalmalıdırlar. Lakin bu heç də o demək deyil ki, elmlə məşğul olmaq üçün tamamilə inancsız olmaq da mütləqdir.  Alman

sosioloqu və tarixçisi Maks Veber “elmi dəyərlərdən kənar tutmağa çalışın” dedikdə müəllimlərə səslənirdi. Müəllim təbiətin necə işlədiyini öyrətməlidir. Lakin Veber həmçinin qeyd edirdi ki, elmə yalnız ağılla deyil, həm də məna ilə çatmaq lazımdır. “İnsana məna lazımdır, həm də sadiq qaldığı bir məna, yalnız o zaman insan işini mükəmməl edə bilər”.[xxv] Öyrətdiyinizdə obyektiv qala bilməyiniz nə qədər vacibdirsə, öyrəndiyinizdə öz məna axtarışınıza çıxmağınız da bir o qədər qaçılmazdır.

Ümumi nəticəyə gələrək deyə bilərik ki, çərçivədə daxilində *dini hisslər* azad mühitdə fərqli sahələr olaraq kəsişmirlər. İnsanın din kimi imperativ, ya da fərdi mənaları təbiət elmlərinin yox, fəlsəfənin, tarixin, sosiologiyanın, psixologiyanın, antropologiyanın və digər sahələrin mövzusudur ki, o sahələr insanı və insana aid davranışları və düşüncələri araşdırır. *Dini hisslər* müəyyən çərçivədə sadəcə insanın həyatının məna seçimi olaraq, təbiəti araşdırıb cavablar tapmaq üçün maneə deyil. Həm elm, həm də məna insan axtarışının məhsuludur. Hər nə qədər fərqli suallarla yanaşıb fərqli cavablar tapsaq da, hər iki sualın (necə? və niyə?) müəllifi məhz insandır.

**İstinadlar**

[i] Draper, J. W. (1875). *History of the conflict between religion and science*. London: King.

[ii] White, A. D. (1896). *A history of the warfare of science with theology: In Christendom*. New York: D. Appleton.

[iii] Collins, F. S. (2007). *The language of God: A scientist presents evidence for belief*. New York: Free Press.

[iv] Muslims And Evolution In The 21st Century: A Galileo Moment? By Usaama al-Azami. (2013). Retrieved from https://www.huffingtonpost.com/usaama-alazami/muslims-and-evolution-in-the-21st-century-a-galileo-moment_b_2688895.html

[v] Gould, S.J. (2001). “Nonoverlapping Magisteria”, in *Intelligent Design Creationism and Its Critics*, Robert T. Pennock (ed.), Cambridge, Ma.: MIT Press

[vi] Harrison P. (2006). Science” and “Religion: Constructing the Boundaries. *The Journal of Religion*, 86(1), 81-106.

[vii] Carnap, R. (1995). *An introduction to the philosophy of science*. New York: Dover Publications, Inc.

[viii] Crawley, W. (2010). BBC – *Will & Testament: Michael Behe defends Intelligent Design Theory.* [online] Bbc.co.uk. Retrieved from http://www.bbc.co.uk/blogs/ni/2010/11/michael_behe_defends_intellige.html

[ix] Kierkegaard, S. (1988). *Kierkegaard’s Writings, IV, Part II: Either/Or. Part II*. Princeton, New Jersey: Princeton University Press

[x] Kierkegaard, S. (1978). *Two Ages: The Age of Revolution and the Present Age, a Literary Review*. Princeton, New Jersey: Princeton University Press

[xi] Stiven Cey Quld tərəfindən yaradılan bu termin orijinalda “non-overlapping magisteria” (NOMA) adlanır.

[xii] Zewail, A. H. (2002). *Voyage through time: Walks of life to the Nobel Prize*. River Edge, NJ: World Scientific.

[xiii] Georges Lemaître and Albert Einstein: The Strange Tale Of The Cosmological Constant. (2010). Retrieved from https://ericfdiaz.wordpress.com/georges-lemaitre-and-albert-einstein-the-strange-tale-of-the-cosmological-constant/

[xiv] Popper, K. (1979). *Objective knowledge.* Oxford: Clarendon Press.

[xv] Popper, K. (1999). *All life is problem solving*. London: Routledge.

[xvi] Popper, K. (1978). Natural Selection and the Emergence of Mind. *Dialectica*, 32(3/4), 339-355.

[xvii] Popper, K. (1999). *All life is problem solving*. London: Routledge.

[xviii] Griffel F. (2016). Al-Ghazali. *The Stanford Encyclopedia of* In E. N. Zalta (Ed.), *The Stanford encyclopedia of philosophy*. Retrieved from https://plato.stanford.edu/archives/win2016/entries/al-ghazali/ .

[xix] Mindlin, A. (2005). Religion and Natural History Clash Among the Ultra-Orthodox. Retrieved from https://www.nytimes.com/2005/03/22/science/religion-and-natural-history-clash-among-the-ultraorthodox.html

[xx] Hoodbhoy, P.A. (2007). Science and the Islamic world—The quest for rapprochement. *Physics today*, 49.

[xxi] Sosial və humanitar sahələrdə istifadə olunan "post-sekulyarlıq" termini dünyəviləşmənin (sekulyarlaşmanın) və modernləşmənin uğursuzluğu nəticəsində dinin yenidən populyarlaşdığı hazırkı dövrü təsvir etmək üçün işlədilir. Xüsusilə filosoflar Yurgen Habermas və Çarlz Teylor tərəfindən bu termin məşhurlaşdırılıb.

[xxii] Cairo Declaration on Human Rights in Islam,Aug. 5, 1990, U.N. GAOR, World Conf. on Hum. Rts., 4th Sess., Agenda Item 5, U.N. Doc. A/CONF.157/PC/62/Add.18 (1993) [English translation]. Retrieved from http://hrlibrary.umn.edu/instree/cairodeclaration.html

[xxiii] Herf, J. (2003). *Reactionary modernism*. Cambridge: Cambridge Univ. Press.

[xxiv] Polanyi, M. (1962). THE REPUBLIC OF SCIENCE: Its Political and Economic Theory. *Minerva*, 1(1), 54-73.

[xxv] Weber, M. (1958). Science as a

Vocation. *Daedalus*, 87(1), 111-134